*Azərbaycan Respublikası*
*Auditorlar Palatası Şurasının*
*2004-cü il 3 mart tarixli*
*128/8 saylı qərarı ilə təsdiq edilmişdir*

# AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASININ XÜSUSİ TƏQAÜDÜ HAQQINDA

# Ə S A S N A M Ə

1. Azərbaycan Respublikası Auditorlar Palatasının xüsusi təqaüdü Azərbaycan Dövlət İqtisad Universiteti ilə Azərbaycan Respublikası Auditorlar Palatası arasında əməkdaşlıq haqqında 2003-cü il 16 iyun tarixli müqavilənin 3-cü maddəsinin 8-ci bəndinə uyğun olaraq təsis edilir.

2. Xüsusi təqaüdün təsis edilməsindən məqsəd Universitetdə «Mühasibat uçotu və audit» ixtisası üzrə yüksək hazırlığa malik kadrların yetişdirilməsini stimullaşdırmaq, milli audit sistemi üçün layiqli əvəzedicilərin hazırlanmasına yardımçı olmaqdır.

3. Auditorlar Palatasının xüsusi təqaüdü Azərbaycan Dövlət İqtisad Universitetində «Mühasibat uçotu və audit» ixtisası üzrə təhsil alan, yuksək bilik nümayiş etdirən, geniş dünyagörüşünə malik olan və Universitetin ictimai həyatında fəallıq göstərən tələbələrə (bakalavrlara) verilir.

4. Xüsusi təqaüd əvvəlki tədris semestrinin yekunlarına əsasən, ikinci kursdan başlayaraq, növbəti tədris semestri üçün 5 (beş) tələbəyə verilir.

5. Auditorlar Palatasının xüsusi təqaüdçüləri Azərbaycan Dövlət İqtisad Universitetinin müvafiq fakültəsinin təqdimatı əsasında, aşağıdakı göstəricilər əsas götürülməklə, Universitetin rektorluğu tərəfindən müəyyənləşdirilir:

5.1. Tələbənin son tədris semestri üzrə zaçot və imtahanlarının nəticələri;

5.2. Tələbənin tədris prosesində davamiyyət normalarına riayət etməsi;

5.3. Tələbənin nümunəvi davranış və yüksək əxlaqi keyfiyyətlər nümayiş etdirməsi;

5.4. Tələbənin müvafiq ixtisas üzrə elmi-praktik konfrans, seminar və digər bu tipli tədbirlərdə iştirakı;

5.5. Tələbənin Universitetin ictimai həyatında fəal iştirakı.

6. Xüsusi təqaüd Universitet rektorunun Auditorlar Palatasının sədrinə ünvanladığı rəsmi təqdimat əsasında, Palata üzrə imzalanmış əmrə əsasən verilir.

7. Xüsusi təqaüdün məbləği 100.000 (yüz min) manatdır və Auditorlar Palatasının kassasından ödənilir.

8. Xüsusi təqaüdə layiq görülən tələbələr barədə Universitet rektorluğunun təqdimatı hər növbəti semestrdən sonra təzələnir və əvvəlki semestr ərzində xüsusi təqaüd alan tələbənin fərdi göstəriciləri bu Əsasnamənin 5-ci maddəsi ilə müəyyən olunmuş tələblərə cavab vermədikdə, o, növbəti semestrdə xüsusi təqaüd almaq hüququndan məhrum edilir.